# Azərbaycanın təhsil naziri Moskvada Beynəlxalq təhsil sərgisinin açılışında iştirak edib

**Moskvada səfərdə olan Azərbaycanın təhsil naziri Mikayıl Cabbarov Rusiya paytaxtında keçirilən III Moskva Beynəlxalq təhsil sərgisinin açılışında iştirak edib.**

Sərgi çərçivəsində M.Cabbarov A.S.Puşkin adına Rus Dili İnstitutunun rektoru Marqarita Rusetskaya ilə görüşüb. Söhbət zamanı iki ölkə arasında təhsil sahəsində əməkdaşlıq, Azərbaycanda rus dilinin tədrisi və digər məsələlər müzakirə olunub. M.Rusetskaya müsahibəsində bildirib ki, rəhbərlik etdiyi institut Azərbaycana rus dilinin tədrisi, o cümlədən distant elektron təhsil sahəsində yardım göstərməyə hazırdır. Onun sözlərinə görə, artıq bir neçə ildir institutun nəzdində "Rus dilində təhsil" portalı layihəsi fəaliyyət göstərir.

M.Rusetskaya deyib: "Hazırda həmin layihə çərçivəsində Azərbaycandan 52 tələbə rus dilini öyrənir. Biz, həmçinin nazir Mikayıl Cabbarov ilə Azərbaycandan olan rus dili müəllimlərinin peşə səviyyəsinin artırılmasına yardım göstərilməsi məsələlərini də müzakirə etdik".

Görüş zamanı iki ölkə gənclərinin birgə layihələrdə iştirakından da danışılıb. Azərbaycan və Rusiya gənclərinin qarşılıqlı səfərlər həyata keçirməsi, bir-birinin dilini, mədəniyyətini yaxından öyrənməsi, ölkələrimiz arasında mədəni, iqtisadi və diplomatik əlaqələrin tarixinin araşdırılmasının vacibliyi vurğulanıb.



Daha sonra nazir Mikayıl Cabbarov sərgi ilə tanış olub.

Sərginin açılış mərasimində iştirak edən Rusiya hökuməti sədrinin müavini Olqa Qolodets müsahibəsində qeyd edib ki, Azərbaycan ilə qarşılıqlı fəaliyyət Rusiya üçün olduqca əhəmiyyətlidir. O deyib: "Biz Azərbaycandan olan həmkarlarımızla müzakirələr aparmağa, proqram mübadiləsi həyata keçirməyə hazırıq".

Rusiya Təhsil Nazirliyi tərəfindən təşkil olunan III Moskva Beynəlxalq təhsil sərgisində ənənəvi olaraq müəllimlər, təhsil təşkilatlarının, nazirlik və idarələrin rəhbərləri, tələbələr və şagirdlər iştirak ediblər.

***Fəridə ABDULLAYEVA,***
***AZƏRTAC-ın xüsusi müxbiri***

*Moskva*